После освобождения этих территорий с целью доказательства совершения трагедии в Хатыни немцами, создание комиссии Советским правительством и сохранение в силе этого требования до признания официальных представителей Советов своей вины, даны в статье конкретными фактами.

Доказательство совершения Катынской трагедии непосредственно по приказу Сталина и других официальных представителей Советов на основании документальных исследований ученых обеих стран и возвышение в настоящее время памятников жертвам Хатыни во многих странах мира, в том числе и в России, изложено в статье на основании конкретных фактов.

## KATYN MASSACRE

***Veyisov Arif Haji oglu, Veyisova Malak Arif gizi***

***Summary***

On 1 September 1939, the invasion of Poland by Nazi Germany, according to the Soviet-German agreement of 17 September 1939, the Soviet invasion of Poland, and in 1941, informing the Germans by Polish railway workers about there is a mass grave in Katyn, creating a European Commision by Germans to use this finding against the Soviets are explained in the article with concrete facts.

After the liberation of those territories, creating a committee by the Soviet government, claims of Sovets that the Katyn massacre was committed by the Germans and the claim remains in force until the Soviet officials confess are shown in this article with concrete facts.

Committing Katyn massacre by Stalin and other Soviet officials' orders according to document research by scholars of both countries and it is currently erecting monuments to victims of Katyn in many countries of the world and in Russia are explained in the article with concrete facts.

***Rəyçi: t.ü.f.t. Allahverdiyeva Gültəkin***

***BDU-nun Qazax filialının ictimai fənlər kafedrasının 10 noyabr 2021-ci il tarixli iclasın 03 saylı protokolu***

***Daxil olduğu tarix 16 noyabr 2021-ci il***

**UOT:796.**

## OLİMPİYA TƏHSİLİ VƏ ONUN FUNKSİYALARI

***Hüseynova Elnarə Teyyub qızı***

***Gəncə Dövlət Universiteti***

***Gceferova@rambler.ru***

**Xülasə:** *Məqsədi uşaq və gənclərin olimpizmin ideal və dəyərlərinə qoşulması olan olimpiya təhsili təhsil sistemində, yetişən nəslin təlim və tərbiyəsində getdikcə daha mühüm yer tutmağa başlayır. Bir çox ölkələrdə məktəblilər, tələbələr və digər qruplardan olan uşaq və gənclər üçün olimpiya təhsili proqramları reallaşdırılır.*

*Müasir olimpiya hərəkatının banisi fransız baron Pyer de Kuberten (1863-1937) hesab olunur. P.Kuberten görkəmli humanist, insanpərvər bir şəxsiyyət olub. O, özünün idman mədəniyyəti, tarix, etika haqqındakı ideyalarını 30-dan çox kitab, 50 kitabça və 120 məqaləsində bizə çatdırmışdır. Onun əsərləri müasir olimpiya əsərlərinin elmi cəhətdən dərk edilməsi ilə bağlı bütün tədqiqatlar üçün əsas dayaq nöqtəsi, istinad mənbəyidir.*

*Olimpizmin məqsədi idmanın bəşəriyyətin harmonik inkişafına xidmət etməsi və bununla da insan ləyaqətinin qorunmasına xidmət edən sülhsevər cəmiyyətin yaradılmasına yardımıdır.*

**Açar sözlər:** olimpiya, təhsil, sağlamlıq, hərəkət, məqsəd
**Key words:** olympiad, education, health, move, target
**Ключевые слова:** олимпиада, образование, здоровье, двигаться, цель

Məqsədi uşaq və gənclərin oimpizmin ideal və dəyərlərinə qoşulması olan olimpiya təhsili təhsil sistemində, yetişən nəslin təlim və tərbiyəsində getdikcə daha mühüm yer tutmağa başlayır. Bir çox ölkələrdə məktəblilər, tələbələr və digər qruplardan olan uşaq və gənclər üçün olimpiya təhsili proqramları reallaşdırılır. 1994-cü ildə BOK-un prezidentinin dəstəyi ilə “Milli olimpiya komitələri fəaliyyətdə: olimpiya ideallarının təhsil vasitəsi ilə həyata keçirilməsi” ümumdünya kompaniya proyektinin Rəhbər komitəsi yaradılmışdır.

Müasir olimpiya hərəkatının banisi fransız baron Pyer de Kuberten (1863-1937) hesab olunur. Olimpiya təhsilinin mahiyyətini dərk etmək üçün P.Kubertenin yaradıcılıq irsinə nəzər salmaq zəruridir. P.Kuberten görkəmli humanist, insanpərvər bir şəxsiyyət olub. O, özünün idman mədəniyyəti, tarix, etika haqqındakı ideyalarını 30-dan çox kitab, 50 kitabça və 120 məqaləsində bizə çatdırmışdır. Onun əsərləri müasir olimpiya əsərlərinin elmi cəhətdən dərk edilməsi ilə bağlı bütün tədqiqatlar üçün əsas dayaq nöqtəsi, istinad mənbəyidir. 25 noyabr 1884-cü ildə Sorbonnada (Paris) baron Pyer de Kuberten Olimpiya oyunlarını yenidən bərpa etmək niyyətini bəyan etdi. Onun ideyalarında Olimpiya oyunları sadəcə aysberqin görünən hissəsi idi. Onlar vasitəsi ilə o, öz antroposof görüşlərini - məsələn, “olimpiya ruhu” ideyasını inkişaf etdirmək istəyirdi. Artıq 1912-ci ildə o olimpizm haqqında danışmağa başladı. Antik yarışmaları əsas götürərək P.Kuberten idmandan qlobal problemlərin, sosial-etik məsələlərin həllində istifadə etməyi təklif etdi, lakin o başa düşürdü ki, müasir dövrün ən böyük yarışlarını təşkil edən olimpiya oyunları belə bu kimi məsələləri həll edə bilməz. Sülhü və hərtərəfli tərbiyəni təbliğ edən idmandan istifadə edən beynəlxalq hərəkat formalaşdırmaq zəruri idi. P.Kubertenin fikrincə Olimpiya oyunları bəşəriyyətə azadlıq ruhu, dinc dostluq yarışları və fiziki kamillik gətirməli idi.

Pyer de Kubertenin ən böyük xidməti təkcə Olimpiya oyunlarının bərpası və dirçəlişi deyildi, həm də müasir olimpiya hərəkatının ideya məzmununun təşkilati- metodik əsaslarının işlənib hazırlanmasında idi. O, olimpiya hərəkatının ideya əxlaqi kredosunu, “olimpizm” anlayışını özündə birləşdirən məqsəd və prinsiplər toplusunu onun məqsəd və prinsiplərini formalaşdırdı. P.Kuberten hesab edirdi ki, olimpizm insanın təkmilləşməsinə yardım edən bütün prinsipləri parlaq şüa kimi birləşdirməyə cəhd edir. Müasir olimpizm fəlsəfəsini işləyib hazırlayarkən Kuberten idman və idman əlaqələrinin, humanist ideyalların və dəyərlərin reallaşmasında insanın, insan münasibətlərinin və cəmiyyətin bütünlükdə təkmilləşməsinə böyük töhfə verə biləcəyinə istinad edirdi. Bunun əsasında o, olimpizm anlayışını izah edirdi. Etiraf etmək olarki, Pyer de Kuberten olimpizmin olimpiya təhsilinin nəzəriyyə və praktikasını təyin edən əsas müddəalarım və ideallarım işləyib hazırlamışdır.

Bununla bərabər P.Kuberten olimpizmi insanın özünü, onun cəmiyyətdə həyatının təkmilləşdirilməsində alət kimi nəzərdə tutulan idmanlaəlaqələndirirdi. Ona görə də, tam və dərin mənada olimpizm P.Kuberten üçün həyat fəlsəfəsi rolunda çıxış edirdi. P.Kuberten üçün Olimpiya oyunları sadəcə idman yarışları deyil, insan mədəniyyətinin və bütün cəmiyyətin inkişafı üçün vasitə idi. Onun üçün idman hərşeydən əvvəl gənclərin tərbiyəsində bir vasitə və sosial mədəni fəaliyyətin digər növləri ilə əlaqə demək idi. Olimpiya oyunlarının dirçəldilməsi P.Kubertenin fəaliyyətinin əsas məqsədi deyil, onun üçün daha mühüm olan daha böyük miqyaslı məsələlərin həllinin bir hissəsi: bütün təhsil sisteminin reforması idi. Qeyd edək ki, P.Kuberten idmanın böyük pedaqoji dəyərinin tannin- masma əsaslanan, olimpiya hərəkatı çərçivəsində və olimpiya təhsilinə müvafiq olaraq onun bu dəyəri çərçivəsində praktik istifadəsi üçün şərait yaradılmasım özü üçün vəzifə qoyan olimpiya pedaqogikasını işləyib hazırladı.

Müasir olimpizmin yaradıcısının yuxarıda göstərilən bu görüşləri fiziki təhsilin elmi təhlilinin əsasını qoyan rus alimi P.F.Lesqaftın (1837-1909) ideyaları ilə üst-üstə düşiir.

P.F.Lesqaftın fiziki tərbiyənin elmi təhlilinin əsasında şəxsiyyətin fiziki və mənəvi inkişafının vəhdəti ideyası durur. Alim fiziki hərəkətləri yalnız fiziki inkişaf vasitəsi kimi deyil, həmdə insanın intellektual, əxlaqi və estetik inkişafının vasitəsi kimi nəzərdən keçirir. Bu zaman o, əqli və fiziki təhsilin qarşılıqlı təsirinin rasional nisbətini daim qeyd edir. P.F.Lesqaft yazırdı: "Əqli və fiziki təhsilin paralel getməsi vacibdir, yoxsa biz hərəkətsiz qalan orqanlarda inkişafın düzgün gedişini pozarıq". Elə bu ideyadanda çıxış edərək, P.F.Lesqaft hesab edirdi ki, fiziki təhsil orqanizmin və şəxsiyyətin həm təbii, həm də xüsusi seçilmiş hərəkətlər, yaş ötdükcə mürəkkəbləşən, gərginləşən, insanın müstəqilllik və iradi təzahürlərini tələb edən fiziki təmrinlərin təsiri altında məqsədyönlü formalaşdırılmasıdır.

O, fiziki təhsilin əsas məqsədini öz hərəkətlərini bacarıqla idarə etmək və az əmək sərf edərək mümkün qədər qısa müddət ərzində şüurlu sürətdə daha çox iş görmək və yaxud gözəl və çevik hərəkət etməyi öyrətməkdə görürdü.

"P.F.Lesqaft yazırdı: "Fiziki təhsilin köməyi ilə gənclərə özünü idarə etməyi öyrətmək, onları məkan münasibətləri ilə tanış etmək, öz işini vaxta görə bölməyi öyrətmək, onun fəaliyyət enerjisini yüksəltmək zəruridir". P.F.Lestqaft fiziki tərbiyənnin məzmununa hərəkət və oyunlardan idrak metodu kimi, istifadə etməyə böyük diqqət yetirirdi. O fiziki hərəkətləri 4 əsas qrupla təsnif edirdi:

Başla, bədənlə, ətraflarla, sadə hərəkətlər və hərəkətlərin və atmaların müxtəlifliyi ilə mürəkkəb hərəkətlər;

Artan gərginliklə hərəkətlər - ağaclarla və idman daşlan ilə hərəkət zamanı, ağac və dəmir şarları atarkən, tullanarkən, güləşərkən, dırmaşarkən tarazlığın saxlanılması;

Verilmiş tempdə qaçarkən, müəyyən məsafəyə tullanarkən, nişangaha atarkən, fəza və məkan münasibətlərini öyrənməklə bağlı hərəkətlər;

Sadə və mürəkkəb oyunlar prosesində sistematik hərəkətlər - konki sürmək, xizək sürmək, yürüş, ekskursiya və təkmübarizlikdə;

P.F.Lesqaftın təklif etdiyi oyunlar təsnifatı diqqəti cəlb edir. Bunların əsasını oyunçu kollektivinin təşkili, yaş xüsusiyyətləri nəzərə alınmaqla onlar arasında qarşılıqlı münasibət xarakterinin formalaşması təşkil edir. Bu zaman 2 qrup seçilir: sadə və mürəkkəb. Bu qruplardan hər birində P.F.Lestqaft qaçış, atma və güləş oyunları üçün ayrı-ayrı hərəki təmrinlərin mürəkkəbliyi və davamlılığı üzrə qruplar ayırır. Bu altqruplar öz növbəsində hərəkətlərin növünə və tələblərin çətinləşdirilməsinə görə ayrılır. Məsələn, qaçış üzrə oyunlarda düz istiqamətdə qaçmaq, dairə üzrə qaçmaq, maili vəziyyətdə qaçmaq, ikilikdə qaçmaq, kollektiv hərəki təmrinlər tətbiq etmək olar. Beləliklə Rusiyada ilk dəfə olaraq P.F.Lesqaft şəxsiyyətin formalaşması və inkişafı prosesində fiziki təhsildən istifadə etməyin zəruriliyini əsaslandırdı.

Digər rus alimi general A.D.Butovski (1838-1917) həm P.F.Lesqaftın, həm də P.Kubertenin silahdaşı olaraq 1894-cü ildə Parisdə atletika konqresinin hazırlanmasında iştirak etdi. Bu konqresdə o, BOK-un Rusiyadan ilk üzvü oldu. A.D.Butovski hərtərəfli, maraqlı və yaradıcı bir insan idi. Pedaqogika, təhsil problemləri onun həyatının əsas marağı idi. A.D.Butovski gimnastikanın tədrisi üzrə tövsiyələr hazırlamış, bədən tərbiyəsi müəllimləri üçün yay kursları hazırlamış, fiziki mədəniyyət tarixi üzrə mühazirələr oxumuşdur.O, müəllimlərə bədən tərbiyəsi dərslərini necə təşkil etmək, bu fənnin nəzəri və elmi əsasları haqqında mühazirələr oxumuşdur. Artıq yetkin yaşlarında A.D.Butovski Pyer de Kubertenlə tanış olur və o andanda Olimpiya oyunları ideyası ilə alovlanır. Kubertenə kömək edərək A.D.Butovski fəal yazışmalar aparır, mətbuatda mühazirələrlə çıxış edir. O, inadla və çox inandırıcı şəkildə rus oxucularına, dinləyicilərinə olimpizm ideyasının yüksək mənasını açıqlayır.

A.D.Butovski 1911 -ci ildə təsis edilmiş Rusiya Olimpiya komitəsinin yaradılması üçün çox işlər görüb. Komitə fəxri sədrdən, 6 iclasçıdan, 2 namizəddən ibarət idi. 23 iyul 1994-cü ildə Sankt-Peterburqda xoşməramlı Oyunların keçirilməsi zamanı Rusiyanın Olimpiya

komitəsi və Sankt-Peterburqun meriyası Pyer de Kubertenə və onun tərəfdaşı və silahdaşı Aleksey Butovskiyə 2 abidə qoydular.

Hal-hazırda olimpizm anlayışı Olimpiya xartiyasında müəyyənləşdirilmişdir: olimpizm bədənin, iradənin və idrakın məziyyətlərini yüksəldən və onları tarazlaşdırılmış tamlıqda birləşdirən həyat fəlsəfəsidir. İdmanı mədəniyyətlə və təhsillə birləşdirən olimpizm, səylərdən yaranan fəxarətə, yaxşı nümunənin tərbiyəvi dəyərinə, sosial məsuliyyət və ümumbəşəri əsas etik ptinsiplərə hörmətli münasibətə əsaslanan həyat tərzi yaratmağa cəhd edir. Olimpizmin məqsədi idmanın bəşəriyyətin harmonik inkişafına xidmət etməsi və bununla da insan ləyaqətinin qorunmasına xidmət edən sülhsevər cəmiyyətin yaradılmasına yardımıdır.

Olimpiya təhsilini olimpiya hərəkatının yaranmasının və inkişafının qanunauyğun məqsədyönlü proses olmasının dərk edilməsi, olimpizmin anlaşılmasının və onun ideallarının və dəyərlərinin qəbul edilməsi, tənəffus-sağlamlaşdırıcı və bədən tərbiyəsi idman fəaliyyəti metodlarının mənimsənilməsi, həmçinin seçilən idman növündə idman nailiyyətlərinə hazırlığın formalaşdırılması kimi müəyyən edilir. Olimpiya təhsili aşağıdakı funksiyaları yerinə yetirir:

1.koqnitiv, olimpiya oyunlarının yaranması və inkişafı, olimpizmin məqsədləri, vəzifələri, prinsipləri haqqında biliklərin formalaşdırılmasınm təmin edilməsi;

2.kogerent, olimpiya hərəkatının vəolimpizmin ümumbəşəri ideyalarının və dəyərlərinin tələbələr tərəfindən mənimsənilməsini təmin edilməsi;

3.onlarda ədalətli, vicdanlı, davranış prinsiplərinin həmçinin tənəffüs- sağlamlıq və fiziki tərbiyə və idman fəaliyyətinin sabit əsaslı prinsiplərinin formalaşdırılması;

4.koqnitiv tənəffüs-sağlamlıq və fiziki tərbiyə və idmanın fəaliyyətinin inkişafının rəğbətləndirilməsini və dəstəklənməsini, idmanın və idman yarışılarının təşkilini və əlaqələndirilməsini, həmçinin idmanı mədəniyyət və təhsillə birləşdirmək təşəbbüsünü, idmanda vicdanlı oyun və zorakılığın qadağasını nəzərdə tutur.

Nəticə etibarilə qeyd etməliyik ki, olimpiya təhsilinin məqsədi və funksiyaları yetişməkdə olan nəsli Olimpiya oyunlarının əsas ideyaları, humanist idealları və dəyərləri ilə tanış etmək, Olimpiya oyunlarının dünyanın müxtəlif ölkələrinin idmançılarım vicdanlı və bərabərhüquqlu yarışlarda birləşdirmək olduğunu onlara təlqin etməkdir. Gəncləri Ollimpiya oyunlarının keçirilməsinin əsas prinsipi - yarış iştirakçılarının irqindən, dərisinin rəngindən, dini baxışlarından və siyasi görüşlərindən, yaşayış yerindən asılı olmayaraq bərabər hüquqa malik olmalarıprinsipi ilə tanış etməkdir. İdman aqressiya, dopinq, satınalma ilə bir araya sığmaz. İdmanda hansı yolla olur olsun qələbə qazanmaq əsas şərt deyil. Burada ən basilcası vicdanlı, gözəl mübarizə nümayiş etdirməkdir.

***Ədəbiyyat***

1.Quliyev D., Səfərova A. Azərbaycan idmanının dünəni, bu günü. Bakı. "Təknur", 2003. 320
2.Hüseynzadə Ç., Rəhimov C.. Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi. Bakı, 2002. 438 səh.
3.cyberleninka.ru/.../olimpiyckoe – obrazovaniye
4.uor2.ru/study/olimp_edu

## OLYMPIC EDUCATION AND ITS FUNCTIONS

***Huseynova Elnara Teyyub***

***Summary***

Olympic education, aimed at uniting children and youth in the ideals and values of the Olympic Games, is becoming increasingly important in the education system, in teaching and educating the younger generation. In many countries, Olympic education programs are implemented for children and youth of schoolchildren, students and other groups.

The greatest contribution of Pierre de Coubertin was not only the restoration and revival of the Olympic Games, but also the development of the organizational and methodological basis for the content of the ideas of the modern Olympic movement. He formed the goals and principles of the Olympic movement, a set of goals and principles that embodied the moral credo of the idea, the concept of "Olympism".

The goal of Olympism is to promote the harmonious development of humankind and thereby contribute to the creation of a peaceful society that serves to protect human dignity.

## ОЛИМПИЙСКОЕ ОБРАЗОВАНИЕ И ЕГО ФУНКЦИИ

***Гусейнова Ельнара Теййуб кызы***

***Резюме***

Олимпийское образование, направленное на объединение детей и молодежи в идеалах и ценностях Олимпийских игр, приобретает все большее значение в системе образования, в обучении и воспитании подрастающего поколения. Во многих странах программы олимпийского образования реализуются для детей и молодежи школьников, студентов и других групп.

Основоположником современного олимпийского движения является французский барон Пьер де Кубертен. Его работы являются основой всех исследований научного понимания современных олимпийских работ.

Цель олимпизма - способствовать гармоничному развитию человечества и тем самым способствовать созданию мирного общества, которое служит защите человеческого достоинства.

***Rəyçi:dosent Nəbiyev Niyazi***

***Fiziki tərbiyə, gənclərin çağırışa qədərki hazırlığı və mülki müdafiə kafedrasının 16 iyun 2021ci il tarixli iclasın 07 saylı protokolu***

***Daxil olma tarixi 03 noyabr 2021-ci il***

**UOT:94.(479.24).**

## MÜSTƏQİLLİYİMİZDƏN QƏLƏBƏYƏ GEDƏN YOL

***dosent Qədimova Həqiqət, Əliyev Müslüm***

***UNEC-Zaqatala friliallı***

***qedimova.h@gmail.r***

***muslum.aliyev1973@mail.ru***

**Xülasə:** *Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir: "Tarix dəfələrlə sübut etmişdir ki, xalqın əvəzsiz milli sərvəti olan müstəqilliyin qorunması onun əldə edilməsindən-qat-qat-ağır-və-mürəkkəb-vəzifədir".*

*Azərbaycanın müstəqil ölkə kimi mövcudluğu, dövlətçiliyin qorunub saxlanılması, möhkəmlənməsi və demokratik prinsiplərin bərqərar olması, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin uğurla, sürətlə həyata keçirilməsi məhz ulu öndər Heydər Əliyevin-adı-ilə-bağlıdır.*

**Açar sözlər :** Ulu öndər, təhsil, qələbə, dövlət, qayğı və dəstək, gənc nəsil

**Ключевые слова:** Великий лидер, поведа, государство, помощь у поддержка, молодое поколоние

**Key words:** Great leader, victory, state, help and support, young generations

Azərbaycan 1918-1920-ci illərdə müsəlman Şərqində ilk parlamentli, demokratik, dünyəvi dövlət qurmuş, lakin xalqımızın böyük mübarizələr, savaşlar sayəsində nail olduğu